AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmri ilə təsdiq edilmişdir

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

İxtisasın şifri və adı: 7004006 – Maliyyə

BAKI - 2025

AZƏRBAYCAN UNİVERSİTETİ

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

İxtisasın şifri və adı: 7004006 - Maliyyə
İxtisaslaşma: Bank işi

BAKI - 2025

## MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMI

### 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004006 - Maliyyə** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramının Çərçivə Sənədi", eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

### 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**Təhsil proqramının sonunda 7004006 - Maliyyə ixtisasının Bank işi ixtisaslaşması üzrə** məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

- maliyyə hesabatlarının təhlili əsasında adekvat kredit strategiyası formalaşdırmaq və tətbiq etmək;
- daxili və xarici mühit amillərinin dəyişməsi nəticəsində yeni bank risklərini aşkar etmək və onlara qarşı adekvat mexanizmlər formalaşdırmaq;
- bazar tələbi və konyukturu əsasında yeni bank məhsul və xidmətləri təklif etmək;
- maliyyə və statistik göstəricilərin təhlili əsasında verilən qərarların rasionallığı barədə rəy vermək;
- bank likvidliyinin idarə edilməsində Bazel III standartlarının situasiyaya uyğun tətbiqinənəzarət etmək;
- rəqəmsal bankçılıq texnologiyalarının inkişafı istiqamətində infrastruktur təkmilləşdirmə tədbirləri təşəbbüsləri irəli sürmək və icrasını təmin etmək;
- blokçeyn platformasının imkanlarından yararlanmaqla yeni maliyyə texnologiyalarının (FinTech) tətbiqini genişləndirmək;
- bank qanunvericiliyinə və ona edilən dəyişikliklərin implementasiyasına nəzarəti təmin etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Bank işi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

3.2. Bank işi ixtisası üçün təhsil proqramı 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Akademik yazı və etika** [1,2]<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 | |
| 2 | **Layihələrin idarə olunması**[2]<br>Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, “Məhsul sahibi” və “Scrum Master”in vəzifələri və s. mövzular əhatə olunmalıdır. | 6 | |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**[3]<br>ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır. **4** | 54 | |
| 3 | **Maliyyənin müasir problemləri**<br>Bu fənn müasir dövrdə qlobal və milli maliyyə sistemlərində baş verən yenilikləri, tendensiyaları və problemləri əhatə edir. Mövzularda beynəlxalq maliyyə bazarlarının inteqrasiyası, maliyyə risklərinin idarə olunması, rəqəmsal maliyyə alətləri, kriptovalyutalar, maliyyə sabitliyi və tənzimləmə mexanizmləri, həmçinin davamlı maliyyələşmə və yaşıl maliyyə kimi aktual məsələlər araşdırılır. Fənn həm nəzəri əsaslara, həm də praktik məsələlərin təhlilinə əsaslanır.<br>Bu fənnin əsas məqsədi magistrantlara müasir maliyyə mühitində baş verən prosesləri anlamaq, yaranan problemləri təhlil etmək və onların həlli üçün elmi əsaslı yanaşmalar formalaşdırmaq bacarığı qazandırmaqdır. | 6 | |
| 4 | **Müasir bank məhsulları və bank xidmətləri**<br>Fənnin məqsədi:<br>Fənnin məqsədi magistrantlara müasir bank sisteminin fəaliyyəti, yeni nəsil bank məhsulları və xidmətlərinin iqtisadi mahiyyəti, formalaşma mexanizmləri və idarəetmə prinsipləri barədə dərin bilik verməkdir.<br>Fənn tələbələrdə bank sektorunda innovativ maliyyə alətlərinin, | 6 | |

| | | | |
|---|---|---|---|
| | rəqəmsal texnologiyaların və müştəri yönümlü xidmət modellərinin təhlilini aparmaq, qiymətləndirmək və tətbiq etmək bacarığını formalaşdırır.<br>Fənnin qısa məzmunu:<br>Fənn müasir bank fəaliyyətinin strukturunu, məhsul və xidmət çeşidlərini, innovativ texnologiyaların tətbiqini və risklərin idarə olunması mexanizmlərini əhatə edir. | | |
| 5 | **Davranış maliyyəsi**<br>Fənnin məqsədi:<br>Fənnin məqsədi magistrantlara maliyyə qərarlarının qəbulunda insan davranışlarının və psixoloji amillərin rolunu izah etmək, rasional olmayan iqtisadi davranışların bazar proseslərinə təsirini dəyərləndirmək bacarığı aşılamaqdır.<br>Fənn tələbələrdə ənənəvi maliyyə nəzəriyyələrindən fərqli olaraq davranış yanaşmalarını öyrənmək, investor psixologiyasını analiz etmək və maliyyə qərarlarının kognitiv meyllərdən asılılığını qiymətləndirmək bacarığı formalaşdırır.<br>Fənnin qısa məzmunu: Fənn maliyyə qərarlarının psixoloji əsaslarını, investorların emosional və sosial davranışlarının bazarlara təsirini, eləcə də davranış maliyyəsinin tətbiqi istiqamətlərini əhatə edir | 6 | |
| 6 | **Bank fəaliyyaətinin menecmneti**<br>Fənnin məqsədi:<br>Fənnin məqsədi magistrantlara müasir bank idarəçiliyinin prinsiplərini, strateji qərarvermə mexanizmlərini və risklərin idarə olunması proseslərini öyrətməkdir.<br>Fənn tələbələrdə kommersiya banklarının fəaliyyətinin planlaşdırılması, resursların səmərəli idarə edilməsi, maliyyə sabitliyi və rəqabət üstünlüyünün təmin olunması üzrə analitik və praktik bacarıqlar formalaşdırır.<br>Fənnin qısa məzmunu:Bu fənn müasir bank menecmentinin əsas anlayışlarını, idarəetmə strukturlarını, qərarvermə mexanizmlərini və bank fəaliyyətinin strateji istiqamətlərini əhatə edir. | 6 | |
| 7 | **Bank risklərinin idarə edilməsi**<br>“Bank risklərinin idarə edilməsi” fənni bank fəaliyyətində meydana çıxan müxtəlif risklərin – kredit, likvidlik, faiz, valyuta, bazar və əməliyyat risklərinin mahiyyətini, onların təsir mexanizmlərini və idarə olunması üsullarını əhatə edir. Fənn risklərin identifikasiyası, qiymətləndirilməsi və azaldılması üçün istifadə olunan müasir metodologiyalar, statistik modellər və analitik alətlər barədə biliklər verir. Bundan əlavə, Basel komitəsinin risk idarəetməsi ilə bağlı beynəlxalq standartları və tənzimləmə prinsipləri də tədris olunur.<br>Fənnin məqsədi magistr tələbələrinə bank sektorunda risklərin effektiv idarə edilməsinin nəzəri əsaslarını və praktiki bacarıqlarını aşılamaqdır. Tələbələr bu fənn vasitəsilə risklərin bankların maliyyə sabitliyinə təsirini analiz etməyi, risk səviyyəsinə uyğun qərarlar qəbul etməyi və dayanıqlı risk idarəetmə strategiyaları formalaşdırmağı öyrənirlər. | 6 | |
| 8 | **Rəqəmsal bankçılıq**<br>“Rəqəmsal bankçılıq” fənni müasir bank sistemində rəqəmsal texnologiyaların tətbiqini, elektron maliyyə xidmətlərinin inkişafını və onların iqtisadi, hüquqi, texnoloji əsaslarını əhatə edir. Fənndə onlayn və mobil bankçılıq, fintech ekosistemi, blokçeyn texnologiyası, kriptovalyutalar, süni intellekt və böyük verilənlər (big data) əsasında | 6 | |

| | | | |
|---|---|---|---|
| | qərar qəbuletmə prosesləri araşdırılır. Eyni zamanda, kibertəhlükəsizlik, rəqəmsal ödəniş sistemləri, müştəri təcrübəsinin rəqəmsallaşdırılması və tənzimləyici çərçivələr barədə biliklər verilir.<br>Fənnin məqsədi magistr tələbələrinə rəqəmsal bankçılığın mahiyyətini, üstünlüklərini və çağırışlarını öyrətmək, onları müasir bank texnologiyalarını tətbiq edə bilən mütəxəssis kimi yetişdirməkdir. Tələbələr bu fənn vasitəsilə rəqəmsal transformasiyanın bank sektoruna təsirini qiymətləndirməyi, innovativ maliyyə məhsulları yaratmağı və rəqəmsal mühitdə təhlükəsiz bank əməliyyatlarını idarə etməyi öyrənirlər. | | |
| 9 | **Bank nəzarəti və audit**<br>"Bank nəzarəti və audit" fənni bank sistemində daxili və xarici nəzarət mexanizmlərini, risk əsaslı audit prinsiplərini və prudensial tənzimləmə alətlərini öyrədir. Fənn çərçivəsində bank fəaliyyətinə nəzarətin milli və beynəlxalq hüquqi-normativ bazası, Mərkəzi Bankın və digər nəzarət orqanlarının funksiyaları, həmçinin Basel standartlarına uyğun tənzimləmə prinsipləri təhlil olunur. Bundan əlavə, banklarda daxili nəzarət sisteminin təşkili, maliyyə hesabatlarının auditinin aparılması, risklərin aşkarlanması və şəffaf hesabatlılığın təmin edilməsi kimi mövzular da əhatə edilir.<br>Fənnin məqsədi magistr tələbələrinə bank nəzarətinin və auditin mahiyyətini, məqsədlərini və tətbiq mexanizmlərini mənimsətməkdir. Tələbələr bu fənn vasitəsilə bank fəaliyyətinin qanunvericiliyə uyğunluğunu qiymətləndirməyi, riskləri müəyyənləşdirərək onların azaldılması üçün nəzarət prosedurlarını hazırlamağı, həmçinin maliyyə hesabatlarının dürüstlüyünü təmin edən audit prinsiplərini tətbiq etməyi öyrənirlər. | 6 | |
| 10 | **Maliyyə hesabatlarının təhlili**<br>"Maliyyə hesabatlarının təhlili" fənni müəssisələrin maliyyə vəziyyətini və fəaliyyət nəticələrini qiymətləndirmək üçün istifadə olunan analitik üsulları və göstəriciləri öyrədir. Fənn çərçivəsində **balans hesabatı**, **mənfəət və zərər hesabatı**, **pul vəsaitlərinin hərəkəti haqqında hesabat** və **kapitalda dəyişikliklər haqqında hesabat** kimi əsas maliyyə hesabatlarının strukturu və qarşılıqlı əlaqəsi təhlil olunur. Tələbələr üfüqi və şaquli analiz, maliyyə nisbətləri (likvidlik, rentabellik, maliyyə dayanıqlığı və s.) və trendlərin təhlili kimi üsulları öyrənir, həmçinin beynəlxalq maliyyə hesabatı standartlarının (BMHS/IFRS) prinsipləri ilə tanış olurlar.<br>Fənnin məqsədi magistr tələbələrinə müəssisələrin maliyyə vəziyyətini və fəaliyyət səmərəliliyini qiymətləndirmək bacarığı qazandırmaqdır. Tələbələr bu fənn vasitəsilə maliyyə göstəriciləri əsasında düzgün qərar qəbul etməyi, riskləri müəyyənləşdirməyi, investisiya və idarəetmə qərarlarının əsaslandırılmasında analitik təhlildən istifadə etməyi öyrənirlər | 6 | |
| 11 | **Beynəlxalq bankıçılıq**<br>"Beynəlxalq bankçılıq" fənni qlobal maliyyə sistemində bankların fəaliyyət prinsiplərini, beynəlxalq maliyyə bazarlarının strukturunu və transsərhəd bank əməliyyatlarının mahiyyətini öyrədir. Fənn çərçivəsində beynəlxalq kreditləşmə, valyuta əməliyyatları, xarici investisiyaların maliyyələşdirilməsi, beynəlxalq ödəniş sistemləri, korrespondent bank əlaqələri və beynəlxalq tənzimləyici orqanların (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Basel Komitəsi və s.) rolu araşdırılır. Bundan əlavə, | 6 | |

| | | | |
|---|---|---|---|
| | beynəlxalq bank riskləri, qlobal maliyyə böhranlarının təsiri və beynəlxalq bank fəaliyyətində etik və hüquqi məsələlər də fənnin əsas istiqamətlərinə daxildir.<br>Fənnin məqsədi magistr tələbələrinə beynəlxalq bank sisteminin fəaliyyət mexanizmlərini, beynəlxalq maliyyə əməliyyatlarının mahiyyətini və qlobal bank bazarlarında risklərin idarə edilməsini öyrətməkdir. Tələbələr bu fənn vasitəsilə beynəlxalq maliyyə əlaqələrində iştirak edən bankların strateji qərarlarını analiz etməyi, beynəlxalq tənzimləmə normalarını tətbiq etməyi və qlobal maliyyə mühitində səmərəli fəaliyyət göstərmə bacarıqlarını qazanırlar. | | |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**<br>Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır. | 18 | |
| 12 | **-Qiymətli kağızlar bazarı**<br>Bu fənn fənni maliyyə bazarlarının mühüm tərkib hissəsi olan qiymətli kağızlar bazarının iqtisadi mahiyyətini, strukturunu və fəaliyyət mexanizmini öyrədir. Fənn çərçivəsində **səhm, istiqraz, törəmə maliyyə alətləri (fyuçers, opsion, svop və s.)**, onların buraxılışı, dövriyyəsi və bazar qiymətinin formalaşması prinsipləri araşdırılır. Həmçinin birja və birjadankənar ticarət sistemləri, emitent və investorların fəaliyyəti, bazar riskləri, maliyyə vasitəçilərinin rolu və qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi məsələləri tədris olunur.<br>Fənnin məqsədi magistr tələbələrinə qiymətli kağızlar bazarının nəzəri əsaslarını və praktik mexanizmlərini öyrətmək, onları investisiya qərarlarının qəbulunda, portfel formalaşdırılmasında və risklərin idarə edilməsində müstəqil analiz aparmaq bacarığı ilə təmin etməkdir.<br><br>**-Fond bazarları**<br>“Fond bazarları” fənni maliyyə sisteminin əsas tərkib hissələrindən biri olan kapital bazarlarının quruluşunu, funksiyalarını və fəaliyyət mexanizmlərini öyrədir. Fənn çərçivəsində səhm, istiqraz, investisiya fondları və törəmə alətlər kimi maliyyə vasitələrinin bazarda dövriyyəsi, qiymətlərin formalaşması, təklif və tələbin qarşılıqlı təsiri, eləcə də birja və birjadankənar bazarların təşkilati əsasları araşdırılır. Fənn həmçinin Azərbaycan və beynəlxalq fond bazarlarının müqayisəli təhlilini, dövlət tənzimlənməsi prinsiplərini, bazar şəffaflığı və investorların müdafiəsi kimi mövzuları da əhatə edir.<br>Fənnin məqsədi magistr tələbələrinə fond bazarlarının iqtisadi mahiyyətini, strukturunu və funksional prinsiplərini öyrətməkdir. Tələbələr bu fənn vasitəsilə kapital bazarlarında əməliyyat aparmağı, investisiya portfeli formalaşdırmağı, risk və gəlirlilik analizini həyata keçirməyi öyrənir, həmçinin beynəlxalq təcrübəyə əsaslanan fond bazarlarının inkişaf istiqamətlərini qiymətləndirmə bacarığı qazanırlar. | 6 | |
| 13 | **-İnvestisiya portfellərinin idarə edilməsi**<br>“Investisiya portfellərinin idarə edilməsi” fənni maliyyə bazarlarında investisiya qərarlarının qəbul edilməsi və portfelin formalaşdırılması, diversifikasiyası və optimallaşdırılması prinsiplərini öyrədir. Fənndə Markowitz portfel nəzəriyyəsi, CAPM (Capital Asset Pricing Model), risk və gəlirlilik analizi, aktivlərin qiymətləndirilməsi, beta əmsalı, portfelin performans göstəriciləri kimi anlayışlar ətraflı izah olunur. Eyni | 6 | |

| | | | |
|---|---|---|---|
| | zamanda, fond bazarları ilə inteqrasiya, portfel strategiyalarının hazırlanması, passiv və aktiv idarəetmə yanaşmaları, eləcə də ETF-lər, investisiya fondları və fərdi investor davranışları kimi müasir mövzular da əhatə edilir.<br>Fənnin məqsədi magistr tələbələrinə investisiya qərarlarının qəbulunda risk və gəlirlilik balansını qiymətləndirməyi, effektiv portfel formalaşdırmağı və idarəetmə strategiyaları seçməyi öyrətməkdir. Tələbələr bu fənn vasitəsilə fond bazarlarında aktivlərin seçimi və bölgüsünü optimallaşdırmağı, maliyyə risklərini azaldaraq gəlirliliyi artırmağı və müasir investisiya alətlərindən peşəkar şəkildə istifadə etməyi bacarırlar.<br><br>**-Korporativ maliyyə**<br>“Korporativ maliyyə” fənni müəssisələrin maliyyə qərarlarının nəzəri əsaslarını və praktik tətbiqlərini öyrədir. Fənndə kapitalın formalaşması və strukturu, maliyyə resurslarının idarə olunması, dividend siyasəti, kapitalın dəyərinin hesablanması, investisiya layihələrinin qiymətləndirilməsi (NPV, IRR, Payback period və s.), həmçinin birləşmə və alınmalar (M&A) kimi korporativ maliyyə əməliyyatları təhlil olunur. Fənn həmçinin korporativ idarəetmə, agentlik problemləri, risk və gəlirlilik əlaqələri və maliyyə qərarlarının strateji təsirləri kimi məsələləri də əhatə edir.<br>Fənnin məqsədi magistr tələbələrinə korporasiyalarda maliyyə qərarlarının qəbulunun nəzəri əsaslarını və praktik bacarıqlarını aşılamaqdır. Tələbələr bu fənn vasitəsilə kapital strukturunu optimallaşdırmağı, investisiya və maliyyələşdirmə qərarlarını qiymətləndirməyi, şirkətin dəyərini artıran maliyyə strategiyaları hazırlamağı və korporativ maliyyə risklərini idarə etməyi öyrənirlər. | | |
| 14 | **- Beynəlxalq valyuta və kredit münasibətləri**<br>“Beynəlxalq valyuta və kredit münasibətləri” fənni dünya maliyyə sistemində valyuta və kredit mexanizmlərinin mahiyyətini, beynəlxalq ödəniş balansının strukturunu və valyuta bazarlarının fəaliyyət prinsiplərini öyrədir. Fənn çərçivəsində valyuta məzənnələrinin formalaşması, valyuta siyasəti, Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı və digər beynəlxalq maliyyə institutlarının fəaliyyəti, eləcə də beynəlxalq kredit formaları və transsərhəd maliyyələşdirmə mexanizmləri araşdırılır. Bundan əlavə, valyuta riskləri, qlobal borclanma problemləri və beynəlxalq maliyyə sabitliyi məsələləri də təhlil olunur.<br>Fənnin məqsədi magistr tələbələrinə beynəlxalq valyuta və kredit münasibətlərinin nəzəri və praktiki əsaslarını öyrətmək, onları qlobal maliyyə proseslərinin təhlilinə və idarə olunmasına hazırlamaqdır. Tələbələr bu fənn vasitəsilə valyuta məzənnələrinin dəyişməsinin iqtisadiyyata təsirini qiymətləndirməyi, beynəlxalq kredit mexanizmlərini tətbiq etməyi, həmçinin ölkələrin maliyyə sabitliyinə yönəlik siyasətləri təhlil etməyi öyrənirlər.<br><br>**-Beynəlxalq maliyyə**<br>“Beynəlxalq maliyyə” fənni qlobal iqtisadiyyat şəraitində maliyyə axınlarının, beynəlxalq kapital hərəkətinin və valyuta münasibətlərinin mahiyyətini öyrədir. Fənn çərçivəsində beynəlxalq maliyyə bazarları və institutları, valyuta məzənnələri və məzənnə siyasətləri, ödəniş balansı, xarici investisiyalar, beynəlxalq borclanma, qlobal maliyyə sabitliyi və | 6 | |

| | | | |
|---|---|---|---|
| | Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı kimi təşkilatların rolu təhlil olunur. Bundan əlavə, fənn qloballaşma şəraitində maliyyə inteqrasiyası, maliyyə böhranlarının səbəbləri və nəticələri, eləcə də risklərin idarə olunması mexanizmləri kimi mövzuları da əhatə edir.<br>Fənnin məqsədi magistr tələbələrinə beynəlxalq maliyyə münasibətlərinin nəzəri əsaslarını və praktik tətbiqlərini öyrətməkdir. Tələbələr bu fənn vasitəsilə beynəlxalq maliyyə bazarlarının fəaliyyət mexanizmini anlamağı, qlobal maliyyə risklərini qiymətləndirməyi, xarici investisiya və borclanma qərarlarını analiz etməyi və ölkələrin maliyyə sabitliyini qorumağa yönəlik siyasətləri təhlil etməyi öyrənirlər. | | |
| **Təcrübə** | | | |
| 15 | **Elmi-pedaqoji təcrübə** | 6 | |
| **CƏMİ** | | **90** | |

[1] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[3] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.
[4] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.
[5] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[6] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**7004006 - Maliyyə proqramı, Bank işi ixtisaslaşması üzrə məzunlar dövlət və özəl sektorda aşağıdakı peşələrdə işləyə biləcəklər:**

- Kredit üzrə məsləhətçi;
- Bank riskləri üzrə məsləhətçi;
- Şöbə müdiri;
- Bank filial müdiri;
- Bank meneceri;
- Bank müdiri və s.

6.1. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir;

6.2. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər;

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**7004006- Maliyyə ixtisasının Bank işi ixtisaslaşması üzrə *proqramın təlim nəticələri* aşağıdakılardır:**

| **Bank işi ixtisaslaşması üzrə proqramın təlim nəticələri (PTN)** |
|---|
| 1. Maliyyə hesabatlarının təhlili əsasında kredit strategiyası formalaşdırır və onu tətbiq edir |
| 2. Mühit amillərinin dəyişməsi nəticəsində yeni bank risklərini aşkar edir və onlara qarşı adekvat mexanizmlər formalaşdırır |
| 3. Yeni bank məhsul və xidmətləri təklif edir |
| 4. Maliyyə və statistik göstəricilər əsasında qərarların rasionallığını qiymətləndirir |
| 5. Bazel III standartlarının situasiyaya uyğun mərhələli tətbiqini həyata keçirir |
| 6. Rəqəmsal bankçılıq texnologiyaları üçün infrastrukturu təkmilləşdirir |
| 7. Blokçeyn və yeni maliyyə texnologiyalarını (FinTech) tətbiq edir |
| 8. Bank işi sahəsində fəaliyyətin ölkə qanunvericiliyinə uyğunluğuna nəzarət edir |

Əlavə 2

## FƏNLƏR ÜZRƏ FƏNN TƏLİMİ NƏTİCƏLƏRİ (FTN)

## MƏCBURİ FƏNNLƏR ÜZRƏ

| **"Akademik yazı və etika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2. Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3. Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən \| (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4. Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5. Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6. Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Layihələrin idarə olunması" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Layihələrin idarə olunmasının nəzəri əsaslarını, prinsip və metodlarını izah edir, bank sektorunda tətbiq xüsusiyyətlərini şərh edir. |
| FTN 2. Bank fəaliyyətində investisiya, innovasiya və təşkilati layihələrin hazırlanması üzrə qərar qəbul etmə bacarıqları nümayiş etdirir. |
| FTN 3. Layihələrin idarə olunmasında vaxt, xərc, resurs və keyfiyyət göstəricilərini qiymətləndirir və optimal planlaşdırma aparır. |

| |
|---|
| FTN 4. Risklərin idarə olunması metodlarını tətbiq etməklə bank layihələrinin maliyyə və əməliyyat risklərini müəyyənləşdirir. |
| FTN 5. Komanda işi, liderlik və kommunikasiya bacarıqlarını tətbiq etməklə layihə iştirakçılarının fəaliyyətini əlaqələndirir. |
| FTN 6. Layihələrin idarə olunması üzrə beynəlxalq standartları və qabaqcıl təcrübələri təhlil edir. |

| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Ixtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Fənn: Maliyyənin müasir problemləri**

| |
|---|
| 1. Müasir maliyyə sistemində mövcud olan əsas problemləri (fiskal qeyri-sabitlik, dövlət borcu, vergi yığımında çətinliklər və s.) təhlil edə bilir; |
| 2. Qlobal və milli miqyasda maliyyə bazarlarında yaranan riskləri və böhranların səbəblərini analiz edir; |
| 3. Monetar və fiskal siyasət alətlərinin müasir iqtisadi şəraitdə tətbiqini qiymətləndirir; |
| 4. Maliyyə sabitliyinin qorunması məqsədilə tətbiq edilən beynəlxalq tənzimləmə mexanizmlərini (Bazel razılaşmaları, OECD standartları və s.) araşdırır; |
| 5. İqlim dəyişikliyi, yaşıl maliyyə, ESG investisiya prinsipləri kimi yeni maliyyə çağırışlarına cavab verə bilir; |
| 6. Azərbaycanın maliyyə və vergi sistemində mövcud olan aktual problemləri təhlil edir və əsaslandırılmış təkliflər hazırlayır; |
| 7. Maliyyə və vergi sahəsində müstəqil analitik və tədqiqat işi aparmaq, siyasət sənədləri hazırlamaq və qərarvermə prosesinə töhfə vermək bacarığına yiyələnir. |

**Müasir bank məhsulları və xidmətləri**

| |
|---|
| 1. Ənənəvi və müasir bank məhsullarını (depozitlər, kreditlər, ipoteka, plastik kartlar, valyuta əməliyyatları, investisiya və s.) fərqləndirə, onların funksiyalarını və tətbiq sahələrini analiz edə bilir. |
| 2. Yeni bank məhsul və xidmətlərinin hazırlanması, qiymətləndirilməsi və bazara çıxarılması prosesini (bazar tədqiqatı, risk analizi, qiymət və marketinq strategiyaları) izah edə bilir. |
| 3. Bank məhsulları və xidmətlərinin rentabelliyini, likvidliyini və risk səviyyəsini maliyyə göstəriciləri əsasında təhlil edə bilir. |

| | |
|---|---|
| 4. | Müştəri yönümlü yanaşma və xidmət keyfiyyəti prinsiplərini mənimsəyir, müştəri məmnunluğunun artırılması üçün strateji qərarlar qəbul edə bilir. |
| 5. | Komandada işləmək, analitik düşünmək və strateji qərarvermə bacarıqlarını inkişaf etdirir; innovativ və etik bank idarəetməsi prinsiplərini tətbiq edə bilir. |
| 6. | Elmi-tədqiqat bacarıqlarına malikdir, müasir bank xidmətləri sahəsində yeni tendensiyaları və texnoloji yenilikləri tənqidi şəkildə təhlil edə və təqdim edə bilir. |

### Davranış maliyyəsi

| | |
|---|---|
| 1. | Davranış maliyyəsinin nəzəri əsaslarını və klassik maliyyə nəzəriyyəsindən fərqlərini izah edə bilir. |
| 2. | Əsas davranış qərəzlərini (biases) – itkidən qaçma, özünə inam effekti, sürü psixologiyası, çərçivələmə effekti, mentallıq uçotu və s. – müəyyənləşdirə və izah edə bilir. |
| 3. | Bank müştərilərinin və investorların qərarvermə proseslərini davranış maliyyəsi baxımından təhlil edir və daha rasional qərarvermə üçün təkliflər formalaşdıra bilir. |
| 4. | Risk və qeyri-müəyyənlik şəraitində qərarvermə modellərini (Prospect Theory, Heuristics və s.) tətbiq etmə bacarığına malikdir. |
| 5. | Bank sektorunda və maliyyə idarəçiliyində davranış amillərini nəzərə alaraq məhsul və xidmət strategiyalarını optimallaşdıra bilir. |
| 6. | Etik və sosial məsuliyyət prinsiplərini davranış yönümlü maliyyə qərarlarında tətbiq edir; bank-müştəri münasibətlərində etibarın və şəffaflığın rolunu dəyərləndirir. |
| 7. | Komandada işləmək, analitik düşünmək və innovativ yanaşma bacarığını inkişaf etdirir; davranış maliyyəsi biliklərini real bank fəaliyyəti və investisiya idarəçiliyinə tətbiq edə bilir. |

### Bank fəaliyyətinin menecmenti

| | |
|---|---|
| 1. | Bank menecmentinin nəzəri və praktiki əsaslarını mənimsəyir, bankın idarəetmə sisteminin strukturu və funksiyalarını izah edə bilir. |
| 2. | Kommersiya banklarının strateji məqsədlərini, təşkilati strukturunu və idarəetmə modellərini təhlil edə bilir. |
| 3. | Bank fəaliyyətinin əsas istiqamətləri üzrə qərarvermə proseslərini (aktiv-passiv idarəetməsi, likvidlik, rentabellik, risk idarəetməsi və s.) sistemli şəkildə qiymətləndirə bilir. |
| 4. | Daxili nəzarət və korporativ idarəetmə mexanizmlərini başa düşür, risklərin qarşısının alınması və şəffaflığın təmin olunması yollarını müəyyənləşdirə bilir. |
| 5. | Milli və beynəlxalq bank tənzimləmələrini (Basel prinsipləri, Mərkəzi Bankın normativləri və s.) idarəetmə qərarlarında nəzərə ala bilir. |
| 6. | Analitik düşünmə, qərarvermə və liderlik bacarıqlarını inkişaf etdirir, komanda şəraitində effektiv idarəetmə strategiyaları formalaşdıra bilir. |
| 7. | Elmi-tədqiqat aparmaq və praktiki problemlərə tətbiqi həllər təklif etmək bacarığına malik olur; bank menecmentində yeni tendensiyaları tənqidi şəkildə qiymətləndirir. |

### Bank risklərin in idarə edilməsi

| | |
|---|---|
| 1. | Bank risklərinin mahiyyətini, növlərini və idarəetmə prinsiplərini dərindən anlayır və onları təsnif edə bilir. |
| 2. | Kredit, likvidlik, faiz, valyuta, əməliyyat və bazar riskləri kimi əsas risk növlərini müəyyənləşdirə və təhlil edə bilir. |
| 3. | Risklərin kəmiyyətcə qiymətləndirilməsi metodlarını (VaR, stress-test, ssenari analizi və s.) tətbiq edə bilir. |

| | |
|---|---|
| 4. | Risklərin idarə edilməsində istifadə olunan modelləri və strategiyaları (hedging, diversifikasiya, sığorta, limit sistemləri və s.) effektiv şəkildə analiz edir. |
| 5. | Risklərin idarə olunması üzrə qərarvermə bacarıqlarını inkişaf etdirir, risklə gəlirlilik arasında optimal balansın təmin olunması yollarını müəyyənləşdirir. |
| 6. | Komandada işləmək, analitik düşünmək və strateji yanaşma qabiliyyətinə malik olur; real bank mühitində risklərin azaldılması üzrə praktiki həllər təklif edə bilir. |
| 7. | Elmi-tədqiqat və analitik bacarıqlara malikdir, risk idarəetməsi üzrə müasir tendensiyaları və normativ tələbləri tənqidi şəkildə qiymətləndirə bilir. |

**Rəqəmsal bankçılıq**

| | |
|---|---|
| 1. | Rəqəmsal bankçılıq anlayışını, mahiyyətini və inkişaf tendensiyalarını izah edir, ənənəvi bank modellərindən fərqini müəyyənləşdirə bilir. |
| 2. | Fintech ekosistemini, rəqəmsal ödəniş sistemlərini, mobil və onlayn bankçılıq platformalarını analiz edə bilir. |
| 3. | Blokçeyn, süni intellekt, böyük verilənlər (Big Data) və bulud texnologiyalarının bank sektorunda tətbiq imkanlarını qiymətləndirir. |
| 4. | Elektron pul, kriptovalyutalar və mərkəzi bankların rəqəmsal valyutaları (CBDC) barədə biliklərə malik olur və onların tənzimlənməsi prinsiplərini başa düşür. |
| 5. | Kibertəhlükəsizlik və məlumatların qorunması sahəsində beynəlxalq standartları mənimsəyir və bank sistemində onların tətbiqini qiymətləndirə bilir. |
| 6. | Rəqəmsal risklərin (operativ, texnoloji, hüquqi və reputasiya riskləri) idarə olunması üzrə analitik düşünmə bacarığı formalaşdırır. |
| 7. | Rəqəmsal bankçılığın iqtisadi, hüquqi və etik aspektlərini analiz edir və müasir rəqəmsal maliyyə ekosistemində qərar vermə bacarığını inkişaf etdirir. |

**Bank nəzarəti və auditi**

| | |
|---|---|
| 1. | Bank nəzarətinin və auditin nəzəri əsaslarını, məqsədlərini və funksiyalarını dərindən anlayır. |
| 2. | Daxili və xarici audit sistemlərinin məqsəd və funksiyalarını, eləcə də aralarındakı əlaqəni izah edə bilir. |
| 3. | Banklarda daxili nəzarət sistemlərinin qurulması və idarə olunması prinsiplərini bilir və risklərin azaldılmasında onların rolunu qiymətləndirə bilir. |
| 4. | Audit prosesinin mərhələlərini (planlaşdırma, məlumat toplama, analiz, hesabat və yekun qiymətləndirmə) düzgün tətbiq edə bilir. |
| 5. | Audit sübutlarının toplanması, yoxlama üsulları və hesabatların hazırlanması üzrə praktiki bacarıqlara malik olur. |
| 6. | Etik prinsiplər, peşə məsuliyyəti və məxfilik qaydalarını bank auditində tətbiq edir. |
| 7. | Analitik düşünmə və qərarvermə bacarıqlarına malikdir, audit nəticələrinə əsasən strateji qərarlar təklif edə bilir. |

**Layihələrin idarə olunması**

| | |
|---|---|
| 1. | Layihə və layihə idarəetməsi anlayışlarını, onların mərhələlərini və əsas prinsiplərini dərindən anlayır. |
| 2. | Layihələrin iqtisadi və maliyyə cəhətdən qiymətləndirilməsi (NPV, IRR, ROI, risk analizi və s.) üzrə metodlardan istifadə edə bilir. |

| | |
|---|---|
| 3. | Layihə büdcəsinin və resurslarının idarə edilməsi prinsiplərini mənimsəyir, səmərəli planlaşdırma və xərclərin nəzarətini təmin edə bilir. |
| 4. | Bank və maliyyə layihələrinin maliyyələşmə mənbələrini və strukturunu təhlil edə bilir. |
| 5. | Layihə komandalarının idarə edilməsi, liderlik, kommunikasiya və motivasiya bacarıqlarına yiyələnir. |
| 6. | Analitik və strateji düşünmə qabiliyyətinə malik olur, layihələrin uğurlu icrası üçün qərarvermə bacarıqlarını inkişaf etdirir. |
| 7. | Elmi-tədqiqat aparmaq, layihə hesabatları və təkliflər hazırlamaq bacarığına malik olur; bank və maliyyə layihələrinin səmərəliliyini tənqidi şəkildə qiymətləndirə bilir. |

**Maliyyə hesabatlarının təhlili**

| | |
|---|---|
| 1. | Maliyyə hesabatlarının (balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti və kapital dəyişiklikləri hesabatlarının) strukturunu və məzmununu dərindən anlayır. |
| 2. | Beynəlxalq Maliyyə Hesabatları Standartlarının (BMHS/IFRS) prinsiplərini və onların bank sektorunda tətbiqini izah edə bilir. |
| 3. | Bankların maliyyə hesabatlarını oxumaq, şərh etmək və müqayisəli şəkildə təhlil etmək bacarığına malik olur. |
| 4. | Maliyyə göstəriciləri və nisbətlər (likvidlik, rentabellik, borclanma, aktivlərin dövriyyəsi və s.) vasitəsilə bankın maliyyə vəziyyətini qiymətləndirə bilir. |
| 5. | Bank aktivlərinin keyfiyyəti, kapital adekvatlığı və gəlirlilik göstəriciləri üzrə analitik nəticələr çıxara bilir. |
| 6. | Analitik və tənqidi düşünmə qabiliyyətinə malik olur, maliyyə göstəriciləri əsasında obyektiv qiymətləndirmələr aparır. |
| 7. | Elmi-tədqiqat və hesabat hazırlama bacarığı qazanır; bank sektorunda maliyyə hesabatlarının şəffaflığını və etibarlılığını qiymətləndirə bilir. |

**Beynəlxalq bankçılıq**

| | |
|---|---|
| 1. | Beynəlxalq bank sisteminin mahiyyətini və strukturunu dərk edir, beynəlxalq bank fəaliyyətinin əsas prinsiplərini izah edə bilir. |
| 2. | Beynəlxalq maliyyə institutlarının (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, BIS və s.) funksiyalarını və bank sektoruna təsirini təhlil edir. |
| 3. | Beynəlxalq kredit əməliyyatlarının və sindikatlaşdırılmış kreditlərin xüsusiyyətlərini təhlil edir və riskləri qiymətləndirə bilir. |
| 4. | Beynəlxalq ticarət maliyyələşdirilməsi (akkreditiv, inkasso, zəmanət və s.) proseslərini idarə etmə bacarığı qazanır. |
| 5. | Beynəlxalq bank strategiyalarını, filial şəbəkələrinin idarəetmə modellərini və rəqabət mühitini təhlil edir. |
| 6. | Qlobal maliyyə böhranlarının bank sektoruna təsirini qiymətləndirir və risklərin azaldılması üzrə təkliflər formalaşdıra bilir. |

**Əlavə 3**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

**Tədqiqat yönümlü fənlər üzrə PTN-lərin uyğunluq matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1.Maliyyə hesabatlarının təhlili əsasında kredit strategiyası formalaşdırır və onu tətbiq edir | PTN 2.Mühit amillərinin dəyişməsi nəticəsində yeni bank risklərini aşkar edir və onlara qarşı adekvat mexanizmlər formalaşdırır | PTN 3.Yeni bank məhsul və xidmətləri təklif edir | PTN 4.Maliyyə və statistik göstəricilər əsasında qərarların rasionallığını qiymətləndirir | PTN 5.Bazel III standartlarının situasiyaya uyğun mərhələli tətbiqini həyata keçirir | PTN 6.Rəqəmsal bankçılıq texnologiyaları üçün infrastrukturu təkmilləşdirir |
|---|---|---|---|---|---|---|
| Akademik yazı və etika | | | | X | | |
| Layihələrin idarə olunması | X | X | X | X | | |
| Elmi-pedaqoji təcrübə | | | | X | | |

**Bu cədvəl göstərir ki:**

- **Layihələrin idarə olunması** praktik və tətbiqi yönümlü PTN-lərə xidmət edir.
- **Akademik yazı və etika** elmi məntiq, təhlil və etik qərarvermə qabiliyyətlərini formalaşdırır.
- **Elmi-pedaqoji təcrübə** isə nəticələrin düzgün təqdimatı və elmi fəaliyyətin sistemləşdirilməsini dəstəkləyir.

**"Bank işi" ixtisaslaşması üzrə PTN-lərin Tədris fəaliyyətləri ilə uyğunluq matrisi**

| Fənlər / PTN-lər | 1.Maliyyə hesabatlarının təhlili əsasında kredit strategiyası formalaşdırır və onu tətbiq edir | 2.Mühit amillərinin dəyişməsi nəticəsində yeni bank risklərini aşkar edir və onlara qarşı adekvat mexanizmlər formalaşdırır | 3.Yeni bank məhsul və xidmətləri təklif edir | 4.Maliyyə və statistik göstəricilər əsasında qərarların rasionallığını qiymətləndirir | 5.Bazel III standartlarının situasiyaya uyğun mərhələli tətbiqini həyata keçirir | 6.Rəqəmsal bankçılıq texnologiyaları üçün infrastrukturu təkmilləşdirir | 7.Blokçeyn və yeni maliyyə texnologiyalarını (FinTech) tətbiq edir | 8.Bank fəaliyyəti ölkə qanunvericiliyinə uyğunluğuna nəzarət edir |
|---|---|---|---|---|---|---|---|---|
| Maliyyənin müasir problemləri | X | X | | X | X | | | X |
| Müasir bank məhsulları və | | | X | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| xidmətləri | | | | | | | | |
| Davranış maliyyəsi | | | | X | | | | |
| Bank fəaliyyətinin menecmenti | X | X | X | X | | | | X |
| Bank risklərinin idarə edilməsi | | X | | X | X | | | |
| Rəqəmsal bankçılıq | | | | | | X | X | |
| Bank nəzarəti və audit | | X | | | X | | | X |
| Qiymətli kağız lar bazarı | | | | X | | | | |
| Fond bazarları | | | | X | | | | |
| İnvestisiya portfelərinin idarə edilməsi | | | | X | | | | |
| Korporativ maliyyə | X | | | X | | | | |
| Layihələrin idarə olunması | | | | | | | X | |
| Maliyyə hesabatlarının təhlili | X | | | X | | | | |
| Beynəlxalq bankçılıq | | X | | | X | | | X |
| Beynəlxalq valyuta və kredit münasibətləri | X | | | | | | | |
| Beynəlxalq maliyyə | X | | | X | | | | |

Razılaşdırıldı:

Tədris şöbəsinin müdiri
________________f-r.ü.f.d.Leyla Ağamalıyeva

Beynəlxalq magistratura və Doktorantuara Mərkəzinin direktoru
_________________t.ü.f.d.,dos.Nüşabə Quliyeva

Maliyyə və mühasibat kaferasının müdiri
______________i.e.n.,dos. Nəriman Böyükkişi